# “Bax, budur real tarix”

***Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası çoxsaylı maraqlı məqamlarla tarixə yazıldı. Həmin məqamlar təkcə müstəqillik dövründə parlamentimizə xanım deputatın sədr seçilməsi, qanunverici orqanın rəhbər vəzifələrinin hamısına yeni simaların gəlməsi və digər faktlarla yekunlaşmadı. Prezident İlham Əliyevin ilk iclasda söylədiyi geniş nitqində həm ölkə daxilindəki, həm də beynəlxalq aləmdəki bədxahlarımıza kəskin mesajlar göndərməsi də kifayət qədər maraqlı idi.***



Dövlət başçımız Azərbaycan parlamentini beynəlxalq aləmdə təmsil edən deputatların qarşısında bu gün daha böyük vəzifələrin dayandığını söylədi. Qeyd etdi ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə məhz həqiqət kimi çatdırmalıyıq: “Xüsusilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir”.

Prezident xüsusilə vurğuladı ki, ermənilər geniş şəbəkə çərçivəsində bəzi dünya siyasətçilərini satın alırlar. Bunu da beynəlxalq aləmdə hamı bilir. Belə olan halda onların tarixi saxtakarlığına, elə bil ki, bəraət qazandırılır: “Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada, ümumiyyətlə, söhbət belə getmir. Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan. Özü də rusca yazılmışdır – İbrahim xan “Karabaxski Şuşinski”. Bax, budur real tarix”.

Dövlət başçımız deputatlara yeni fəaliyyət istiqamətlərini də göstərdi: “XX əsrin əvvəllərində rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir, görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir”.

***Vəfa ƏLİYEV,***
***professor***

Xalq qəzeti 2020.- 12 mart.- S.6.